IACC

BEYNÄLXALQ ANTİ-KORRUPSİYA KONFRANSI

LIMA BÄYANNAMÄSI

LİMA, PERU, 7-11 sentyabr 1997

1997-ci ilin sentyabrında Limada (Peruda) 8-ci Beynälxalq Anti-Korrupsiya Konfransının sonuncu iclasında nümayändälärin süräkli alqışları ilä qäbul edilän Lima Bäyannamäsi äsrin sänädidir. Bu sänäd beynälxalq vä milli säviyyälärdä, cämiyyätin bütün sektorları, bütün täbäqälärinin iştirakı vä ämäkdaşlığı ilä korrupsiyaya qarşı mübarizänin geniş strategiyasının aydın şäkildä müäyyän edilmäsindä dünya ictimaiyyätinin ilk addımıdır. Aparıcı beynälxalq Anti-Korrupsiya forumunda beynälxalq donor täşkilatlarının vä agentliklärinin rähbärläri, dövlät hakimiyyätinin üç sahäsinin nümayändäläri, anti-korrupsiya agentlikläri, ombudsmenlär, professional assosiasiyalar (hüquqşünaslar, auditorlar), jurnalistlär, alimlär, xüsusi sektorun vä vätändaş cämiyyätinin nümayändäläri iştirak etmişlär. Bäyannamä - fäaliyyät proqramıdır vä onun häyata keçmäsinä 1999-cu ildä Cänubi Afrikada keçirilácäk növbäti Anti-Korrupsiya Konfransında baxılacaq.

## KORRUPSİYAYA QARŞI LİMA BÄYANNAMÄSİ

Biz, 1000 näfärdän çox vätändaş, bütün kontinentlärdän, inkişafın müxtälif varlı vä kasıb märhälälärindä olan böyük vä kiçik ölkälärdän, hökumätin, xüsusi sektorun vä vätändaş cämiyyätinin müxtälif täbäqälärindän gälmiş, 93 ölkänin nümayändäsi,

Bütün Yer küräsindä korrupsiyanı, onun bütün täzahürläri ilä, dayandırmaq vasitälärinin axtarışına dair müzakirälärdän sonra hämfikirik ki, beynälxalq vä milli ämäkdaşlıq äsri olan iyirmi birinci yüzillikdä korrupsiya bäläsı aradan qaldırılmalıdır.

İndi 7-11 sentyabr 1997-ci ildä Peruda, Limada keçirilän 8-ci Beynälxalq Korrupsiyaya Qarşı Konfransının bu Bäyannamäsi vasitäsilä birläşirik.

İnanaraq ki, korrupsiya:

- Här bir cämiyyätin mänävi däyärlärini dağıdır;
- Kasıb vä ehtiyacı olanların sosial vä iqtisadi hüquqlarını pozur;
- Demokratiyanı sarsıdır;
- Här bir mädäni cämiyyätin äsasını täşkil edän qanunun hakimiyyätini devirir;

- İnkişafı ləngidir;
- Cəmiyyəti və xüsusən onun kasıb təbəqələrini azad və açıq rəqabətin xeyirindən məhrum edir;

Əmin olaraq ki,

- o Korrupsiya ilə mübarizə hər bir cəmiyyətdə hər kəsin işidir;
- o Bu mübarizə cəmiyyətin bütün sahələrində etik dəyərlərin müdafiəsi və möhkəmlənməsini özünə daxil edir;
- o Hakimiyyət, vətəndaş cəmiyyəti və xüsusi sektor arasında koalisiyanın yaranması vacibdir;
- o Belə koalisiyaya daxil olmağa hazırlıq – hər bir hökumətin korrupsiyanı aradan qaldırmaq öhdəliklərinin həqiqi sınağıdır;
- o Mövcud vəziyyəti saxlamaq istəyənlərə qarşı müqavimət göstərməkdə və insanları zəruri islahatları dəstəkləməyə səfərbər etməkdə vətəndaş cəmiyyətinin rolu xüsusən vacibdir;
- o Genişlənən özəlləşmə və dövlət nəzarətinin ləğvi ilə yanaşı dövlətin ənənəvi yerinə yetirdiyi fəaliyyətdə korrupsiyaya qarşı kampaniya böyük rol oynamalı və xüsusi sektorun dəstəyi ilə həyata keçirilməlidir;
- o Bütün cəmiyyətlərdə bu işdə ali rəhbərlik aparıcı rol oynamalıdır, necə deyərlər "Əgər siz evin pilləkanını təmizləyirsinizsə, bunu ən yuxarı pillədən başlamaq lazımdır";

Biz bütün dünyanın hökumətlərini, beynəlxalq və regional agentliklərini və vətəndaşlarını öz qüvvəsini və enerjisini səfərbər edib aşağıdakı fəaliyyətlərə nail olmaq üçün bizimlə birliyə çağırırıq:

**Beynəlxalq və Regional səviyyədə fəaliyyət**

1. Beynəlxalq qurumlar yüksək idarəçiliyin inkişafının irəliləməsində əhəmiyyət kəsb edən vətəndaş cəmiyyətlərinin yaradıcı rolunu dəstəkləməli və onlarla bu işin

başa vurulması mäqsädilä yoldaşlıq şäraitindä işlämälidir. Qloballaşmanın bütün müsbät aspektlärini qeyd etmäk vä mänfi täräflärini aradan qaldırmaq üçün onlar bir yerdä işlämälidirlär.

2. İxracla mäşğul olan ölkälär täräfindän başqa ölkälärin väzifäli şäxslärini fäal surätdä maliyyäläşdirdiyi vä onların korrupsiyasını genişländirdiyi rüşvätä vergini tätbiq etmäk täcrübäsinä son qoymaq.

3. İqtisadi Ämäkdaşlıq vä İnkişaf Täşkilatı bu ilin sonuna qädär xarici dövlätin väzifäli şäxslärinin rüşvätxorluğunu kriminallaşdıran Razılaşmanı yekunlaşdırmalıdır vä bunun şärtläri ona üzv olan dövlätlär täräfindän 1998-ci ilin sonuna qädär häyata keçirilmälidir. İqtisadi Ämäkdaşlıq vä İnkişaf Täşkilatı vätändaş cämiyyätinin iştirakı ilä güclü näzarät proqramını yerinä yetirmälidir vä bununla da şäffaflığı vä Razılaşmanın ciddi şäkildä häyata keçirilmäsini tämin etmälidir.

4. Bütün Amerika dövlätläri 1998-ci ilin aprelindä Santyaqoda yüksäk säviyyädä keçiriläcäk Amerika Dövlätlärinin Görüşü qarşısında Amerika Dövlätläri Täşkilatının (ADT) Korrupsiyaya Qarşı Ümumamerika Razılaşmasını ratifikasiya etmälidirlär. Biz Amerika Dövlätläri Täşkilatını täläsdiririk ki, Razılaşmanın häyata keçmäsini irälilätsin vä ona näzarät etsin vä bunu korrupsiyaya qarşı regional ämäkdaşlığın gözäl nümunäsi kimi başqa regionların müzakiräsinä tövsiyä etsin.

5. Dünya Bankı vä Beynälxalq Valyuta Fondu Prezident Vulfenson (DB) vä İcraçı direktor Kamdessus (BVF) täräfindän başlamış korrupsiyaya qarşı yeni siyasätin icrasını vä xüsusän dä korrupsiya problemi ilä älaqädar tädbir görmäyän hökumätlärä kredit ayırmalarının dayandırılmasını tezläşdirmälidirlär.

6. Avropa Şurası özünün, 1997-ci ilin mayında Avropa Birliyi Komissiyası täräfindän iräli sürülän, anti-korrupsiya siyasätinin häyata keçmäsini tezläşdirmälidir; AŞ-nın bütün üzv-dövlätläri 1997-ci il 26 may tarixindä qäbul edilmiş Avropa Şurasının Korrupsiya üzrä Razılaşmasını ratifikasiya etmälidirlär; vä Avropa Şurasının oktyabrda keçiriläcäk yüksäk säviyyäli görüşünün konkret näticälär gätiräcäyinä täminat vermäk üçün AŞ-nın bütün üzv-dövlätläri korrupsiyaya qarşı Ümum-intizam Qrupunun işinä qoşulmalıdırlar.

7. BMT-nin korrupsiyaya qarşı fäaliyyäti dästäklänmälidir. Dövlätlär BMT-nin Korrupsiyaya vä Rüşvätxorluğa qarşı Bäyannamäsini vä Dövlät Väzifäli şäxslärin Beynälxalq Davranış Kodeksini häyata keçirmälidirlär. Beynälxalq maliyyä täşkilatları vä donor-hökumätläri BMT-nin ämäkdaşlıq üzrä fäaliyyätini bundan sonra da dästäklämälidirlär.

8. Dünya Ticarät Täşkilatı qlobal mübarizäyä müstäqil qoşulmalı vä dünya ticarätindäki korrupsiyaya ciddi täsir göstärmäyä başlamalıdır.

9. Bütün çoxtäräfli vä ikitäräfli yardım qurumları, öz inkişaf täräfdaşları ilä birgä onların inkişaf proqramlarındakı korrupsiyanın aradan götürülmäsinin täcrübi yollarını tapmalıdır.

10. Maliyyä täşkilatları korrupsiyaya qarşı mübarizädä paklıq sisteminin milli proqramlarının rolunu gücländirmäk üçün ayırdıqları yardımı artırmalıdır. Xüsusän beynälxalq vä milli säviyyädä hökumätin sazişlär proqramlarının şäffaflığı gücländirilmälidir. Korrupsiyanın aradan qaldırılmasında onun vacib elementi kimi idaräçilik vä dövlät xidmäti islahatı märkäzi ähämiyyät käsb etmälidir vä bilavasitä dövlät xidmäti täräfindän siyasi müdaxilädän sığortalanmalıdır.

11. Beynälxalq qurumlar därk etmälidirlär ki, onların beynälxalq sazişlär üzrä täcrübäsi bütünlüklä qänaätbäxş deyil vä onlar gäläcäkdä rüşvätxorluğa qarşı müqavilälärdän vä paklıq haqqında müqavilälärdän istifadä etmäklä xüsusi sektorla vä ayrı-ayrı hökumätlärlä ämäkdaşlıq şäraitindä sazişlärin bağlanmasında yeni nümunälär vä yeni yanaşmaların inkişafını davam etdirmälidirlär. Rüşvätlä satın alınanlar qara siyahıya daxil edilmälidir. Afrika üzrä Qlobal Koalisiya Beynälxalq Şäffaflıqla vä hökumätlärlä bu sahädä öz nümunävi işini davam etmälidir.

12. Bu sahädä mandatı olan Beynälxalq täşkilatlar, o cümlädän İnterpol vä Dünya Gömrük Täşkilatı zäruri beynälxalq hüquq ämäkdaşlığını gücländirmäk üçün yeni addımlar atmalıdırlar.

13. Bütün beynälxalq bank märkäzlärinin fäaliyyätinin nizamlanması o mäqsädlä yaxşılaşdırılmalıdır ki, onların näzaräti ilä väsaitlärin beynälxalq normalara uyğun idarä olunmasına vä qanunsuz äldä edilmiş väsaitlärin izlänilä, dondurula vä qaytarıla bilmäsinä zämanät verilsin. Burada näzärä alınmalıdır ki, bu standartları yerinä yetirä bilmäyän offşor bank märkäzläri beynälxalq pul-kredit sistemindän xaric edilmälidir. Bank sirri cinayätkarların müdafiäsini tämin etmämäli vä korrupsiyanın ifşasını çätinläşdirmämälidir.

14. Hälä dä bir çox ölkälärdä täcili olaraq gömrük sistemindä şäffaflığa vä paklığa yönälmiş islahat vä yeniläşmä lazımdır. Donor birliyi täräfindän vä xüsusän Dünya Gömrük Täşkilatı vasitäsilä yardımlar artırılmalıdır. Dünya Gömrük Täşkilatının üzvläri 1993-cü il Aruşa Bäyannämäsini vä 1994-cü il Kolumbiya Bäyannamäsini

bütünlüklä häyata keçirmäli vä bütün beynälxalq ticarät sazişlärindä şäffaflıq vä paklıq prinsiplärinä zämanät vermäk üçün ämäkdaşlıq etmälidirlär.

15. Beynälxalq Ticarät Palatası şirkätlär täräfindän Davranış Kodeksinin, daxildä vä xaricdä rüşvätxorluqla vä pul qopardılması ilä mübarizäyä dair uzlaşdırılmış Proqramların geniş şäkildä qäbul edilmäsinä imkan yaratmalıdır. Biz Davranış Kodekslärini vä uyğunlaşdırılmış effektli Proqramların qäbul edilmäsini ona görä täläsdiririk ki, çünki bu aparıcı layihälärdä iştirak etmäk üçün täläb olunur.

16. Beynälxalq Prokurorlar Assosiasiyası vä Beynälxalq Hüquqşünaslar Assosiyasiyası bizim här birimizin müxtälif hüquqi sistemlärimizdäki korrupsiya hallarının mähkämä täqibinin daha asan vä daha tez olmasına, eyni zamanda insan hüquqlarının beynälxalq normaları ilä uzlaşmasına imkan yaradan nümunävi qanunları inkişaf etdirmälidirlär.

17. Sähmdarlar bütün dünyada israr etmälidirlär ki, onların kapital qoyduğu şirkätlär birgä idaräçilik häräkatının mäqsädlärini müdafiä etsin.

18. Müxtälif Beynälxalq mühasiblär vä auditorlar assosiasiyaları vä Beynälxalq tählükäsizlik xidmätlärin assosiasiyaları beynälxalq alämdä qäbul edilän mühasibat uçotunun aydın vä universal standartlarını inkişaf etdirmälidirlär. Bu, korrupsiyaya qarşı mübarizädä xüsusi ähämiyyät käsb edir vä ona zämanät verir ki, bütün maliyyä sazişläri qeydiyyata alınacaq vä heç bir "gizli kitablar" vä ya gizli hesablar olmayacaq.

19. Beynälxalq professional assosiasiyalar öz milli filiallarına daha çox diqqät yetirmälidir vä onların nüfuzunu milli peşäkar standartların müdafiäsi, möhkämlänmäsi vä yüksälmäsinin täminatı üçün istifadä etmälidir.

20. Beynälxalq maliyyä vä donor qurumları bürokratiya vä korrupsiyanın törätdiyi anomaliyaları aşkara çıxarmaq üçün mähsulların vä xidmätlärin qiymätlärinä aid olan beynälxalq indekslärin inkişafında vätändaş cämiyyäti ilä ämäkdaşlıq etmälidirlär.

21. Regional vä Beynälxalq qurumlar bütün bacardıqlarını etmälidirlär ki, bizim Bäyannamäni iräli aparsınlar vä son näticädä bu yönümdä öz proqramlarını inkişaf etdirsinlär.

Milli vä yerli säviyyädä fäaliyyät

22. Bütün hökumätlär bütün säviyyälärdä şäffaflıq vä mäsuliyyätlilik tärzindä işlämälidirlär ki, ictimaiyyät maksimal däräcädä informasiya äldä edä bilsin. Onlar

zämanät vermälidirlär ki, dövlät hesabları ictimai tähqiqat üçün açıqdır. Vätändaş cämiyyätinin rolu daha çox milli vä yerli säviyyädä ähämiyyätlidir, burada onun iştirakı qärarları qäbul edän şäxslärlä açıq görüşlärin mümkünlüyü ilä vä vacib mäsälälär üzrä ictimai dinlämälärin keçirilmäsi ilä tämin olmalıdır.

23. Hökumätdän gözlädikläri şäffaflıq vä mäsuliyyätlik standartlarına, hämçinin özlärinin dä riayät etdiklärinä zämanät vermäk üçün vätändaş cämiyyätinin orqanları kimi vätändaş cämiyyätini täşkil edän qeyri-hökumät täşkilatları islah etmäni özlärindän başlamalıdırlar. Vätändaş cämiyyäti häm dä korrupsiyanın äleyhinä çıxanların vä buna görä täqiblärä märuz qalanların müdafiäsindä sayıqlıq göstärmälidir.

24. Bütün hökumätlär korrupsiyaya qarşı mübarizädä göstärilän säylärin sämaräsini müäyyän edän qanun aliliyinin tämäl daşını - mähkämä sisteminin müstäqil, ädalätli vä siyasätdän känar olmasına zämanät vermälidirlär.

25. Hökumät vä insanlar arasında körpü olan Ombudsmen qurumu bürokratik sädlärin vä korrupsiyanın aradan qaldırılmasında böyük iş görä bilär vä ona görä dä, bu müstäqil qurumun mövcud olmadığı ölkälär onun yaradılmasına vä parlament täräfindän onun täsdiq edilmäsinä nail olmalıdırlar.

26. Hökumätlär Vätändaş cämiyyäti vä xüsusi sektorla birlikdä vaxtaşırı dövlätin müvafiq orqanlarının vä väzifäläri Konstitusiya ilä müäyyänläşdirilän mämurların mäsuliyyätlärinin xüsusiyyätlärinä yenidän baxmalı vä yerli säviyyädä korrupsiyadan effektli müdafiänin formalaşmasına zämanät vermälidirlär. Maraqların konflikti qaydalarına xüsusi diqqät yetirmäk lazımdır. Bu mänada ähämiyyätli olan Müfättiş (Baş Auditor) Qurumu vä onun müstäqilliyi mühüm rol oynamalıdır.

27. Hälä bunu etmäyän hökumätlär rüşvätxorluq vä korrupsiya üçün olan iqtisadi imkanları, mäsälän, inhisarçılığı, idarä olunan qiymätläri, hädsiz däräcädä yüksäk vergiläri, eläcä dä işgüzar fäaliyyätä mane olan tälimatları vä lisenziyaları minimuma endirmälidirlär.

28. Dövlät xidmätinin islahatı korrupsiyaya qarşı mübarizä mühitinin yaradılması üçün zäruridir. Prosesin bütün iştirakçıları ödäniläcäk layiqli mävacibin verilmäsi imkanının täminatına xüsusi diqqät yetirmälidir.

29. Xüsusi diqqäti maliyyä idaräçilik sisteminin möhkämlänmäsinä vä büdcä proseslärinin şäffaflığının täminatına vä onların vätändaş cämiyyätindäki rollarına uyğun olmalarına yetirmäk lazımdır.

30. Ölkälär korrupsiyaya aid olan qanunların, imkan daxilindä onları maksimal däräcädä öz konstitusiyalarına vä insan hüquqlarının beynälxalq normalarına uyğunlaşdıraraq, effektliliyini artırmalıdırlar, o cümlädän:

- Väzifäli şäxs täräfindän qäbul edilän qanunsuz hädiyyänin faktik olaraq onun işinin äväzindä alınan täşäkkür olduğunu sübuta yetirilmäsi haqqında täläbin lăğvi;

- Dövlät väzifäli şäxslärin vä seçilmiş nümayändälärin (onların ailäsinin) maliyyä väsaitlärinin bäyannamäsi üçün sistemin täminatı vä onlara qarşı qanuni mänbälärin häcmi ilä gälir säviyyäsinin uyğunluğu öhdäliklärini tätbiq etmä;

- Müstäqil agentliklär täräfindän dövlät sektorundan qärarlar qäbul edän mäsul şäxslärin (onların ailälärinin vä täräfdaşlarının) maliyyä väsaitlärinä vä häyat tärzinä vaxtaşırı vä ya täsadüfi seçim yolu ilä näzarätin häyata keçirilmäsi;

- Kimliyindän vä harada baş vermäsindän asılı olmayaraq korrupsiyada günahlandırılmış väzifäli şäxslärin qeyri-qanuni yolla mänimsädikläri väsaitlärin dondurulmasına, götürülmäsinä v müsadirä edilmäsinä effektli sälahiyyätlär verän qanunların yaradılması;

- Şahidlärin (onların ailäsinin) vä mälumat veränlärin müvafiq müdafiäsinin täminatı;

- Väzifäli şäxslär täräfindän qäbul edilmiş hädiyyälärin qeydiyyatı sisteminin täminatı;

- Väzifäli şäxslärin bütün säviyyälärdä toxunulmazlıq immunitetindän istifadä edä bilmämälärinin vä korrupsiya haqqında qanuna bütünlüklä tabe olmalarının täminatı;

- Mähkum olunan cinayätkarları siyasi fäaliyyätlä mäşğul olmaq vä dövlät säviyyäli väzifälärä täyin olunma imkanından mährum etmä.

Bu addımlar korrupsiyanın qarşısının alınmasını vä mähkämä täqibini daha da effektli edä bilärdi.

31. Hökumätlär onların milli vä yerli administrasiyalarının täşkil etmä prosesini, onların ädalätli, açıq vä alternativ olması, cämiyyätin rifahı vä xüsusi sektor üçün faydalı şäraitin yaradılması mäsäläsi onlar üçün äsas däyär kimi qäbul edilmäsi

mäqsädilä, xüsusi sektor vä vätändaş cämiyyätinin ämäkdaşlığı ilä birgä tählil etmälidir.

32. Tenderlärdä qalib gälmäk üçün väzifäli şäxsläri satın alan namizädlär ädalätli tähqiqatdan sonra qara siyahıya salınmalı vä müäyyän müddätä räsmi biznesdä räqabätdän uzaqlaşdırılmalıdır.

33. Korrupsiya seçki vä siyasi proseslärdä äsas maneä olduğu üçün siyasi proseslärdä siyasi xadimlärä vä siyasi partiyalara edilän ianälärin qısa müddätdä ictimai qeydiyyatı vä nizamlanması üzrä effektli tädbirlärin häyata keçirilmäsinä vä onların yığılması kampaniyalarının ciddi täftişinä dair täxiräsalınmaz işlär görülmälidir. Vätändaş tälimi proqramlarının davamı vacibdir.

34. Milli peşäkar assosiasiyalar, xüsusän väkillär, mühasiblär, häkimlär vä mühändislär, onların peşäkar davranış kodekslärinin vä korrupsiyaya yol verän üzvlärinin inzibati cäzalandırma vasitälärinin adekvatlığını vä effektliyini tähqiq etmälidirlär.

35. Müstäqil informasiya vasitälärinin rolu ähämiyyätlidir, lakin onların effektli işlämäsi üçün täqiblärdän azadlığı, informasiya azadlığını (häm vätändaş, häm dä jurnalist üçün) vä qanuni ifadä edilän narahatlığı qeyri-qanuni şäkildä boğa bilmäyän hüquqi sitemdän azadlığı tämin edän qanunlar olmalıdır. Biz bilavasitä hökumätläri, informasiya vasitälärini vä vätändaş cämiyyätini täläsdiririk ki, onlar informasiya vasitälärinin öz rollarının häyata keçmäsi üçün müvafiq şäraitin olmasına zämanät versinlär.

36. Qäzet redaktorları här zaman fikirläşmälidirlär ki, onların näşrläri ictimaiyyät üçün korrupsiya äleyhinä "çağırış" rolunu oynaya bilär, şikayät mexanizmlärinin därk olunmasını artıra bilär vä ictimaiyyät bunlardan necä effektli istifadä edä bilär. Onlar hämçinin dä baxmalıdırlar ki, korrupsiya probleminä dair ictimai fikir iqliminin sağlamlaşmasına necä kömäk edä bilärlär, çünki ona qarşı layiq olduğu yalnız nifrätli münasibätlä insanlar varlı vä güclü ola bilärlär. İnformasiya vasitäläri özläri rüşvätin qäbuluna vä yersiz qonaqpärvärliyä qarşı tädbirlär görmälidirlär.

37. Korrupsiyanı tam aradan qaldırmayana qädär här hansı islahat cähdläri äbäs olacaq; hökumätlär, mäktäblär vä dini qurumlar gänc näsillärä korrupsiyanın törätdiyi ziyanı vä buna aludä olduqda özlärini färdi risklärä märuz qoymalarını därk etdirmäyä yönälän tähsilä başlamalı, täşäbbüslär etmälidirlär.

38. Davranış kodeksläri häyatın äksär sahälärindä tätbiq edilmälidir (o cümlädän, nazirlär kabineti, parlament, mähkämä hakimiyyäti vä hökumät nazirliklärinin här bir nöqtäsindä) vä hökumätlär onların administrasiyalarının äxlaqını vä paklığını tämin edän tädbirläri tädqiq etmälidir.

39. Xüsusi zäif cähätlärin aşkarlanması üçün, eläcä dä korrupsiyaya marağı azaltmaq mäqsädilä xidmätin keyfiyyätinin inkişafına näzarät üçün qiymätli vasitä kimi dövlät xidmätinin vä qurumların keyfiyyäti haqqında müstäqil icmaların istifadäsini hökumätlär dästäklämälidir.

40. Nähayät, hökumätlär, vätändaş cämiyyäti vä xüsusi sektor bir neçä ölkädä olduğu kimi därk etmänin yüksältmäsi üçün äsas olan här il keçiriläcäk "anti-korrupsiya günlärinin" vä ya "mäsuliyyät günlärinin" täsdiqini müzakirä etmälidirlär. Bu fikir gäläcäkdä BMT-yä här il beynälxalq fäaliyyät gününün täsdiq edilmäsi üçün täqdim edilä bilär.

Biz Konfransın Räyasät Heyätindän, eläcä dä Beynälxalq Anti-Korrupsiya Konfransının Şurasının Katibliyindän, Beynälxalq Şäffaflıqdan bu tövsiyäläri hökumätlärin vä müvafiq qurumların näzärinä çatdırmaq üçün lazımı tädbirlärin görmäsini täläb edirik. Biz inandırırıq ki, bilavasitä öz fäaliyyätimizlä bu işä zänginlik gätiräcäyik.

Biz 1999-cu ildä Cänubi Afrikada yeni görüşümüzü gözläyirik. Biz vaxtaşırı keçirilän täcrübä mübadilälärinin vä keçän häftä Limada olduğu kimi, uğurlu tädbirlärinin praktik faydasını vä täsirini täsdiq edirik vä hesab edirik ki, korrupsiyaya qarşı atılan praktik addımlara dair beynälxalq müzakirälärin irälilämäsindä ähämiyyätli nailiyyätlär äldä etmişik. İki ildän sonra Cänubi Afrikada bizim bilavasitä korrupsiyaya qarşı mübarizädä vä burada täklif olunan häräkätlärin häyata keçirilmäsindä äldä edilän irälilämäläri qiymätländirmäyä imkanımız olacaq.

Nähayät, biz Täşkilat Komitäsinä, Perunun nümayändälärinä, hökumätinä, onların xüsusi sektoru vä vätändaş cämiyyätinä mehriban qäbulu, açıqüräkli qonaqpärvärliyi, zängin vä münasib gündäliyin inkişafı, korrupsiyaya qarşı mübarizädä cämiyyätin dästäkläyici vä vätändaş kimi iştirakı vä yeni yüzilliyi etika vä paklıq yüzilliyi kimi qäbul etdiyinä görä sämimi qälbdän minnätdarlığımızı bildiririk.